## Regionlardan vergi daxilolmaları artır

Cari ilin yanvar-avqust aylarında ƏVİ-lər üzrə büdcəyə 302,1 milyon manat vəsait daxil olmuşdur

Son zamanlar iqtisadi sahədə həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına və nəticə etibarilə ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəlmişdir. Ölkənin iqtisadi qüdrətinin artmasında regionlar xüsusi rola malikdir. Bu baxımdan, regionların inkişafının sürətləndirilməsi dövlətin iqtisadi siyasətinin başlıca hədəflərindən biri kimi müəyyənləşdirilmişdir Bunu regionların sosial-iqtisadi inkişafına dair 2009-2013-cü illəri əhatə edən ikinci Dövlət Proqramının qəbul edilməsi bir daha sübut edir.

Hər iki proqramda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.

Həyata keçirilən çevik büdcə-vergi siyasəti nəticəsində dövlətin iqtisadi qüdrətinin daha da artırılması, regionların, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, istehsal və infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, dövlət büdcəsi sosial və investisiya yönümlü, inkişaf və quruculuq büdcəsinə çevrilmiş, iqtisadi islahatların və dövlət proqramlarının maliyyələşmə mənbəyi kimi çıxış etmişdir.

Təkcə 2011-ci ildə Azərbaycan iqtisadiyyatında ÜDM-in həcmi 51 milyard 157,5 milyon manat olmuşdur. ÜDM-in 26 milyard 786,5 milyon manatı (52,4%) neft sektorunun, 24 milyard 371 milyon manatı (47,64%) isə qeyri-neft sektorunun payına düşmüşdür. Qeyd edək ki, 2011-ci ildə ÜDM-in real artımı 2010-cu ilə nisbətən 0,1% təşkil etmişdir. 2011-ci ildə dövlət büdcəsinin gəlirləri 15700,7 milyon manat, vergi daxilolmaları isə 5471,9 milyon manat təşkil etmişdir. Bu artım tempi 2012-ci ilin 8 ayı ərzində də qorunub saxlanılmışdır. 2012-ci il üzrə proqnoz tapşırıqları 5 milyard 911,6 milyon manat təşkil edir. 2012-ci ilin 8 ayı ərzində 3 milyard 808,9 milyon manat proqnoza qarşı 4 milyard 180 milyon manat vergi daxil olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,6% artım deməkdir. Bunun da 2 milyard 191,8 (52,4%) milyon manatı qeyri-neft-qaz sektoru üzrə, 1 milyard 988,2 milyon manatı isə (47,6%) neft sektoru üzrə olmuşdur.

2012-ci ilin 8 ayı ərzində yalnız ərazi vergilər idarələri (ƏVİ) üzrə vergi daxilolmaları 273,1 milyon manat proqnoza qarşı 302,1 milyon manat təşkil etmişdir. Bu isə ƏVİ-lər üzrə proqnozun 110,6% yerinə yetirilməsi deməkdir. 2012-ci ilin yanvar-avqust ayları üzrə ƏVİ-lər üzrə faktiki daxilolmalar ötən ilin müvafiq dövrünə nisbətən 11,2% artıq olmaqla 30,4 milyon manat artıqlaması ilə yerinə yetirilmişdir.

2012-ci ildə ümumi vergi daxilolmalarında bir sıra tədiyyələr üzrə artımlar müşahidə edilmişdir. Belə ki, 2012-ci ilin 8 ayı ərzində ƏDV üzrə 942 milyon manat proqnoza qarşı 952,8 milyon manat ödənilmiş, bununla da ƏDV-nin ümumi daxilolmada xüsusi çəkisi (x/ç) 22,8% təşkil etmişdir. O cümlədən aksiz vergisi üzrə 296 milyon manat proqnoza qarşı 313,3 milyon manat (x/ç 7,5%), mənfəət vergisi üzrə 1 milyard 473,7 milyon proqnoza qarşı 1 milyard 658,5 milyon manat (x/ç 39,7%), fiziki şəxslərin gəlir vergisi üzrə 477,4 milyon manat proqnoza qarşı 520,1 milyon manat (x/ç 12,4%) ödənilmişdir. Cari ildə ƏVİ-lərdən ƏDV üzrə 99,6 milyon, aksiz vergisi üzrə 1,1 milyon, mənfəət vergisi üzrə 18,4 milyon, gəlir vergisi üzrə 81,4 milyon manat vergi daxil olmuşdur. Ümumilikdə tədiyyələr üzrə ötən ilin müvafiq dövrünə nisbətən artım müşahidə olunmuşdur. Bu da əsasən yeni iş yerlərinin yaradılması, əmək müqavilələrinin bağlanmasına vergi nəzarətinin gücləndirilməsi ilə birbaşa əlaqədardır. 2012-ci ildə ƏVİ-lər üzrə ümumi vergi daxilolmalarında ƏDV-nin xüsusi çəkisi 33%, mənfəət vergisi 6,1%, gəlir vergisi isə 27% təşkil etmişdir.

**2012-ci ilin yanvar-avqust ayları ərzində dövlət və qeyri-dövlət sektorları üzrə daxilolmalar (mln. manat)**




Arzu İBRAHİMOVA